# İMAM MƏHDİ (ə) BİR NƏZƏRDƏ

<"xml encoding="UTF-8?>

İMAM MƏHDİ (ə) BİR NƏZƏRDƏ

Şiələrin axırıncı imamı və Peyğəmbəri Əkrəmin (s) son canişini 255-ci hicri qəməri ili (868-ci miladi) şə`ban ayının 15, cümə günü sübh çağı İraqın Samirra şəhərində dünyaya gəlmişdir.

Onun atası şiələrin 11-ci imamı olan həzrəti İmam Həsən Əskəri (ə), anası isə layiqli və əməli saleh qadın olan Nərgiz xatundur ki, onun hansı millətə mənsub olması ilə əlaqədar müxtəlif rəvayətlər nəql olunmuşdur. Bir rəvayətə uyğun olaraq o, Roma imperatorunun oğul Yəşu`nun qızıdır ki, onun anası həzrəti İsa (ə)-ın vəsisi olan Şəm`unun nəslindəndir. Bu rəvayətə uyğun olaraq Nərgiz xatun qəribə bir yuxu görməklə islamı qəbul edir və İmam Həsən Əsgəri (ə)-ın hidayəti ilə özünü müsəlmanlarla müharibəyə hazırlaşan Rum ordusunun içərisinə salır. Bir qrupla yanaşı islam ordusuna əsir düşür. İmam Hadi (ə) bir nəfəri göndərir ki, onu alıb Samirraya gətirsin.[1]

Digər rəvayətlərdə nəql olunan [2] mühüm və diqqət yetiriləsi məsələ budur ki, həzrət Nərgiz xatun bir müddət İmam Hadi (ə) böyük şəxsiyyətli bacılarının biri olan Həkimə xatunun evində olmuş onların tə`lim-tərbiyəsi altında qərar tutmuş və Həkimə xatunun tərəfindən ehtirama layiq görülmüşdür.

Həzrət Nərgiz xatun uzun illər öncə Peyğəmbəri Əkrəmin (s) kəlamında[3], Əmirəl-mö`mininin (ə)-ın,[4] və İmam Sadiq (ə)-ın kəlamında[5] tə`rifə layiq görülmüş və «ən yaxşı bir kəniz» və «kənizlərin sərvəri» kimi qeyd edilmişdir.

Qeyd olunmalıdır ki, İmam Zaman (ə)-ın anası digər adlarla da o cümlədən: Susən, Reyhanə, Məleykə, Seyqəl də (Səqil) kimi adlarla tanınır..

## İmamın adı, künyəsi və ləqəbləri

Künyə dedikdə «əb» və «ümm» kəlmələri ilə başlanan sözlər nəzərdə tutulur: Əbu Əbdillah, Ümmül-Bənin və sair. İmam Zaman (ə)-ın adı və künyəsi adı və künyəsi eynilə Peyğəmbərin adı və künyəsi kimidir. Bə`zi rəvayətlərdə də zühura qədər o həzrətin adını çəkmək qadağan

olunmuşdur. O həzrətin məşhur ləqəbləri aşağıdakılardır:

Məhdi, Qaim, Müntəzər, Bəqiyyətullah, Höccət, Xələfi Saleh, Mənsur, Sahibul-Əmr Sahibəz Zaman və Vəliyyi Əsir. Bunların ən məşhuru Məhdidir.

Bu ləqəblərdən hər biri o həzrət barəsində xüsusi bir peyğamı çatdırır. O İmama ona görə «Məhdi» deyilmişdir ki, özü Allah tərəfindən hidayət olunmuşdur və insanları da haqqa doğru də`vət edir. Ona görə «Qaim» deyilmişdir ki, haqq olaraq qiyam edəcəkdir. Ona görə «Müntəzər» deyilir ki, hər kəs onun gəlişini gözləyir. «Bəqiyyətullah» ləqəbi ona görə verilmişdir ki, Allah təalanın yer üzündə sonuncu höccəti və sonuncu ilahi zəxirə hesab olunur.

«Höccət» Allah təalanın məxluqata olan şahidi, «Xələfi saleh» Allah övliyaları üçün layiqli canişin, «mənsur» Allah tərəfindən kömək olunan, və «Sahibül-Əmr» ləqəbi də ilahi ədalət əsasında hökumət qurulmasını öhdəsinə aldığına görə verilmişdir. Sahibəz-Zaman və Vəliyyi Əsr də bu mə`nayadır ki, o, dövrünün yeganə rəhbəri və hakimidir.

## İmamın təvəllüdü

Peyğəmbərdən çoxlu rəvayətlərdə nəql olunur ki, o həzrətin xanədanından olan Məhdi adlı bir nəfər qiyam edəcək, zülmün və haqsızlığın kökünü yer üzündən kəsəcəkdir. Zalım Abbasi xəlifələri bu rəvayətlərdən agah olduqdan sonra elə təvəllüdünün əvvəllərində həzrəti Məhdi (ə)-ın qətlə yetirmək məqamına gəlmişdilər. Buna görə də İmam Cavad (ə)-ın həyatının əvvəllərindən e`tibarən mə`sum imamların həyatı daha kəskin məhdudiyyətlərlə yanaşı olmuş və bu məhdudiyyətlər imam Həsən Əsgəri (ə)-ın dövründə özünün ən yüksək həddinə çatmışdır. Belə ki, o həzrətin evinə ən adi gediş-gəlişlər belə, hökumət tərəfindən ciddi nəzarət altında saxlanılırdı. Aydındır ki, belə bir şəraitdə Allah təalanın sonuncu höccəti, İlahinin vədəsi verdiyi bir şəxsin təvəllüdü gizlin şəkildə və gözlərdən uzaqda baş verməli idi. Buna görə də hətta 11-ci imamın yaxın adamları, belə İmam Məhdi (ə)-ın təvvəlüdündən xəbərsiz idilər. Təvəllüdündən bir neçə saat öncəyə qədər Nərgiz xatunda hamiləlik əsər-əlamətləri görünməmişdir.

İmam Cavad (ə)–ın qızı Həkimə xatun İmam Zaman (ə)-ın təvəllüdünü belə nəql edir:

İmam Həsən (ə) mənim ardımca adam göndərib buyurdu: «Ey bibi! Bu gün iftarda bizim evimizdə ol. Çünki on beşi şəban gecəsidir. Allah təala bu gecədə Özünün (sonuncu) höccətini yer üzündə aşkar edəcəkdir.» Soruşdum ki, bəs onun anası kimdir? Buyurdu: «Nərgiz!» Dedim: Sənə fəda olum! Axı onda hamiləlik əlamətləri görünmür?!» Buyurdu: «Necə ki, dedim!» Sonra (Nərgiz xatunun yanına) getdim, salam verib oturdum. O irəli gəldi ki, mənim ayaqqabılarımı

çıxartsın. Mənə dedi: «Sərvərim, halınız necədir?» Dedim: «Sən mənim və mənim xanədanımın sərvərisən, xanımısan!» Mənim sözümü qəbul etməyib dedi: «Əmmə can! Bu nə sözdür?!» Dedim: «Qızım, bu gün Allah təala sənə bir övlad ətə edəcəkdir ki, dünya və axirətin sərvəridir.» O xəcalət çəkib başını aşağı saldı.

Həkimə xatun deyir: İşa namazından sonra iftar etdim və öz yatağımda uzandım. Gecə yarısı namaz (gecə namazı) qılmaq üçün ayağa qalxdım, onu qıldım, və hələ də Nərgiz xatun (son dərəcə aramlıqla) yatmışdı. Heç bir hadisə də onun üçün baş verməmişdi. Namazın tə`qibatını yerinə yetirdikdən sonra yatdım. Birdən hövlnak ayağa qalxdım, o, yenə də yuxuda idi. Bir neçə andan sonra ayağa qalxıb gecə namazını qıldı və yenidən yatdı.

Həkimə xatun sözünün davamında deyir: Həyətə çıxıb fəcrin açılmasını bilmək üçün göyə baxdım. Birinci fəcri[6] müşahidə etdim, Nərgiz xatun yenə də yatağında yatmışdı. Sonra imamın buyurduğu sözlər barəsində şəkkə düşdüm; gözlənilmədən İmam Həsən Əsgəri (ə) öz yerindən məni çağıraraq buyurdu: Ey əmmə, tələsmə, (viladət) işi yaxındır.» Mən oturub «Səcdə» və «Yasin» surələrini oxumağa başladım. Birdən Nərgiz xatun iztirabla oyandı. Dərhal onun yanına gəlib dedim: İsmullahu əleyki![7] Sən bir şey hiss edirsənmi? Dedi: «Bəli, ey Əmmə!» Dedim: «Özünü ələ al və qəlbini möhkəm saxla. Bu, sənə dediyim hadisədir.» Bu zaman həm məndə həm də Nərgiz xatunda bir zəiflik əmələ gəldi. Sərvərimin (dünyaya gəlmiş görpənin) səsindən özümüzə gəldikg Paltarı üstündən götürdük də onu səcdə halında müşahidə etdik! Onu ağuşuma alıb tamamilə pak-pakizə olduğunu gördüm!

Bu zaman İmam Həsən Əsgəri (ə) məni səsləyib dedi: «Ey əmmə, oğlumu yanıma gətir!» Onu atasının yanına apardım. Ağuşuna alıb buyurdu: «Oğlum danış! «Uşaq danışmağa başlayaraq dedi: «Əşhədu ənla ilahə illəllah, vəhdəhu la şərikə ləh və əşhədu ənnə Muhəmmədən rəsullulah.» Sonra Əmirəl-Mö`minin Əli (ə) və sair imamlara salam göndərdi. Atasının adına çatdıqda onunla danışmağa başladı. İmam Həsən (ə) buyurdu: «Ey Əmmə, onu anasının yanına apar, ona da salam etsin.»

Həkimə xatun deyir: O günün sabahı on birinci imamın yanına gedib həzrətə salam verdim. Pərdəni kənara çəkdim ki, mövlanı (İmam Məhdini) görüm. Lakin onu görmədim. Buna görə də atasından soruşub təəccüblə dedim: «Sənə fəda olum! Mənim mövlam üçün nə hadisə baş vermişdir?!» O həzrət buyurdu: «Ey Əmmə, onu o kəsə (Allaha) tapşırdım ki, Musanın anası Musanı ona həvalə etmişdi.»

Həkimə deyir: Təvəllüdün yeddinci günü gəlib salam verdim və oturdum. İmam buyurdu:

«Oğlumu yanıma gətir.» Mən sərvərimi gətirdim... İmam buyurdu: «Oğlum danış.» Körpə (danışmağa başladı və) Allahın yeganəliyinə şəhadət verdikdən, Peyğəmbərə və əziz ata-babalarına salavat göndərdikdən sonra bu ayəni tilavət etdi.

(بِسْمِ اللّهِ الرَّحْمـَنِ الرَّحِيمِ وَنُرِيدُ أَن نَّمُنَّ عَلَى الَّذِينَ اسْتُضْعِفُوا فِي الْأَرْضِ وَنَجْعَلَهُمْ أَئِمَّةً وَنَجْعَلَهُمُ الْوَارِثِينَ وَنُمَكِّنَ لَهُمْ فِي الْأَرْضِ وَنُرِي فِرْعَوْنَ وَهَامَانَ وَجُنُودَهُمَا مِنْهُم مَّا كَانُوا يَحْذَرُونَ[8])

«Bağışlayan və mehriban Allahın adı ilə. Biz iradə etmişik ki, yer üzündə müstəz`əf olanlara minnət qoyaraq onları yer üzünün varisləri və rəhbərləri qərar verərək, yer üzündə onların hökumətlərini bərqərar edək, Fir`ona Hamana və onun ləşgərlərinə «Bəni-İsrailin» qoxduğu şeyləri göstərək.»[9]

## İmam Zaman (ə) zahiri qurluşu

Peyğəmbəri Əkrəmdən(s) və Əhli beyt imamlarından nəql olunan rəvayətlərdə həzrəti Məhdi (ə)-ın zahiri quruluşu və vəsfləri bəyan edilmişdir ki, onlardan bə`zilərini qeyd edirik.

O həzrət cavan və buğdayı rənglidir, alnı geniş və parlaq, qaşları hilali və çəkilmişdir, gözləri qara və iri, burnu çəkilmiş və gözəl, dişləri parıldayan və enlidir, sağ yanağında qara rəngli bir xal vardır, çiyinlərinin arasında nübüvvət nişanəsinə oxşar bir şey (möhür) vardır. Onun mübarək bədən quruluşu çox mütənasib və ürəkoxşayandır.

Məsumların sözlərində o həzrətin vücudu və xüsusiyyətləri barəsində nəql olunanlardan bə`zilərini qeyd edirik:

O, ibadət əhli olub, gecələri ibadətlə məşğuldur. Zöhd (Zahidlik) sadə yaşamaq, səbir, ədalət və yaxşı əməl sahibidir. O həzrət elm və bilikdə hamıdan yüksəkdədir. Onun əziz vücudu xeyir bərəkət və paklıq mənbəyidir. O, qiyam və cihad əhli, dünyanın rəhbəri, böyük bir inqilabçı, bəşəriyyətin xilaskarı və bəşəriyyətə və`dəsi verilmiş islahatçıdır. O nurani vücud Peyğəmbərin nəslindən, Fatimeyi Zəhranın övladlarından və İmam Hüseyn (ə)-ın doqquzuncu övladıdır. Zühur etdiyi zaman Kə`bə divarına söykənərək Peyğəmbərin bayrağını əlinə alacaq, öz qiyamı ilə Allah dinini yenidən dirçəldəcək, Allahın hökmlərini dünyanın hər bir yerində icra edəcək, dünyanı zülm və haqsızlıqla dolduğu kimi, yenidən haqq-ədalətlə dolduracaqdır.[10]

İmam Məhdi (ə)-ın həyatı üç hissəyə bölünür:

1-Məxfi şəkildə yaşamaq dövrü. O həzrətin təvəllüdünün əvvəlindən atası İmam Həsən Əskəri (ə)-ın şəhadətinə qədər məxfi yaşayış dövrünü əhatə edir.

2-Qeybət dövrü: 11-ci imamın şəhadətindən başlanır və Allahın iradə etdiyi bir dövrə qədər davam edəcəkdir.

3-Zühur əsri. Qeybət dövranı sona çatdıqdan sonra Allahın iradəsi ilə zühur edəcək, dünyanı gözəlliklərlə, yaxşılıqlarla haqq-ədalətlə dolduracaqdır. Heç kəs və`dəsi verilən və intizarı çəkilən şəxsin nə vaxt zühur edəcəyini bilmir. İmam Zaman (ə)-dan rəvayət olunmuşdur ki, «zühur üçün zaman tə`yin edənlər yalançılardır.»[11]

---

[1] Kamalüd-din, ikinci cild, 41-ci 1-hədis, səh. 132

[2] Biharul-ənvar, beşinci cild, hədis 29, səh 22, hədis 14, səh. 11

[3] Yenə orada, beşinci cild, hədis 7, səh. 21

[4] Qeybəti Tusi, hədis 478, səh. 470

[5] Kəmalud-din, ikinci cild, 33-cü bab, birinci hədis, səh 21

[6] Sübh azanından bir az öncə üfüqdə aşkar olan ağlığa deyilir.

[7] Bu cümlədən məqsəd budur ki, «bəlalar səndən uzaq olsun!»

[8] Qəsəs surəsi, 5 və 6

[9] Kəmaluddin, ikinci cild, bab 42, birinci hədis, səh. 143

[10] Müntəxəbül-əsər, ikinci fəsil, səh. 239 -383

[11] Ehticaç, ikinci cild, səh. 542